Azad AZƏRBAYCAN
26 noyabr / 2020
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

# Şəhid qanı ilə mənfur düşməndən təmizlənən Vətən torpaqları

**"Torpağın, Vətənin müdafiəsi hər birimiz üçün ən ülvi, ən uca, ən müqəddəs zirvədir! Bu müqəddəs zirvənin fəth edilməsində şəhid olanlar Cənnətə gedirlər. onların qəhrəmanlığı xalqın xatirəsində daim yaşayacaq!"**

*Heydər Əliyev*

**Vətənin azadlığı, torpaqlarımızın qorunması uğrunda canından keçən, Azərbaycanda bugünkü ictimai-siyasi sabitliyin yaranmasında xidməti olan hər bir vətəndaşımız - Milli Qəhrəmanlarımız, şəhidlərimiz, veteranlarımız - qazilərimizlə fəxr edirik. Cənab Prezidentimiz İlham Əliyevin bacarığı ilə rayonlarımız igidlərimizin qanı ilə azad edildi. Şanlı ordumuz düşmənin başını əzdi. Dünyanı erməni bəlasından qurtardı...**

Ərazilərimizi düşmən tapdağından azad edən belə şəhid qəhrəmanlarımız içərisində Masazır kəndinin sakinləri də olublar.



Onlardan biri Həmidzadə Hüseyn Akif oğlu 1992-ci ildə oktyabr ayının 15-də anadan olub. 1 nömrəli Abşeron rayon məktəbini bitirib. Daha sonra o, Azərbaycan Kooperasiya İnstitutunun İqtisadiyyat fakültəsində təhsil alıb. Ali təhsil aldıqdan sonra Hüseyn hərbi xidmətə çağrılıb. O,. Murovdağda xidmət edib. Milli ordumuzun üç şəhəri Fizuli, Cəbrayıl, Xocavənd rayonlarının azad edilməsində şücaət göstərib və şəhidlik zirvəsinə ucalıb.

**Hüseyn döyüşlərdə çoxlu sayda erməni əsgərlərini məhv edib. Ordudan atasına yazdığı məktubda deyilir:** "Xocalının, Polad Həşimovun, Azadın qanını ermənilərdən aldıq".

**Hüseynin haqqında komandirləri də fəxarətlə danışırlar:** "Hüseyn cəbhədə çox şücaətli, qorxmaz, igid əsgər idi. O, heç nədən qorxmurdu, ancaq fikri erməniləri məhv etmək idi".

**Atası Akif Həmidov Şəhidimiz haqqında belə deyir:** "Hüseyn evdə çox səmimi, vətənpərvər, bacarıqlı, intizamlı oğul idi. Ailəmizin üzvlərinə qarşı çox mehriban, qayğıkeş idi. Mən həmişə inanırdım ki, o, bir vətənpərvər kimi ordu sıralarında torpaqlarımızı düşmən işğalından azad edəcək. Üç rəngli bayrağımızı Şuşada qaldıracaq, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin əmri ilə Qafqaz sıra dağları birləşəcək, ərazi bütövlüyümüz bərpa olunacaq. Yaşasın müzəffər, şanlı ordumuz. Əsgər oğullarımızla fəxr edirik".

Hüseyn Şəki şəhərində Şəhidlər Xiyabanında dəfn olunub.

## Şəhid Elçin Həsənli

**Masazır kəndinin digər şəhid oğlu Həsənli Elçin Vaqif oğludur. O, 16.06.1993-cü ildə Ağstafa rayonunun Həsənsu kəndində ziyalı ailəsində anadan olub. Orta məktəbi Bakı şəhəri, Nəsimi rayonu 211 nömrəli məktəbdə bitirib. 2010-cu ildə o, Azərbaycan Texniki Universitetinə Energetika fakültəsinə qəbul olub. Oranı bitirdikdən sonra ixtisası üzrə magistraturaya qəbul olaraq oranı da 2017-ci ildə bitirib. Elçin 2014-cü ildə hərbi xidmətə çağrılıb. Fizuli rayonunda xidmət edib.**

İkinci Vətən müharibəsində Şuşa uğrunda gedən döyüşlərə könüllü qatılıb. 8 noyabr 2020-ci ildə Şuşanın azad edilməsində qəhrəmanlıq göstərərək şəhid olub.

**Şəhidimizin atası texnika elmləri doktoru, professor Vaqif Həsənov**



**Şəhidimiz haqqında belə deyir:** "Elçin "Asan Xidmət"də çalışırdı. Kollektivin dərin hörmətini qazanmışdı. O ailəmizi çox sevirdi, bizim bütün tapşırıqlarımıza əməl edirdi. Evdə çox səmimi idi. Hamının dərin hörmətini qazanmışdı. Oxuduğu məktəbdə müəllimlərin sevimlisi olmuşdu. Elçin ordu sıralarında dəfələrlə "Fəxri fərman"larla təltif olunub, komandirlərin təşəkkürnaməsini almışdı".

**Anası Xatirə İsmayılova da oğlu haqqında öz fikirlərini bizimlə bölüşdü:** "Elçin bacarıqlı, işgüzar, hər yerdə özünə hörmət qazanan, hamının yerini bilən oğul idi. Biz hamımız onunla fəxr edirik".

Elçin Xırdalan Şəhidlər Xiyabanında dəfn olunub.

**Biz də şəhidlərimizlə fəxr edirik. Məhz Onların qanı, canı bahasına torpaqlarımız işğaldan azad olundu. Yaşasın Azərbaycan Ordusu!**

Hacı Tofiq SEYİDZADƏ